**525-ci qəzet**. - 2024. - 15 mart. - № 49. - S. 14.

# Muxtariyyət dövründə Naxçıvan toponimlərinin tədqiqi

***Naxçıvan Muxtar Respublikası - 100***

**Cəmilə Məhərrəmova,**
AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşı

Naxçıvanın muxtariyyət statusunun zəruriliyini əsaslandıran Ümummilli lider Heydər Əliyev deyirdi: "Naxçıvanın muxtariyyəti mühüm hadisədir. Bu, çətin bir dövrdə, böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars Müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir. Belə ağır şəraitdə Naxçıvanın yaşamasının, inkişaf etməsinin əsas şərtlərindən biri də odur ki, Naxçıvana o vaxt muxtariyyət hüququ veriblər. Bu muxtariyyət hüququ çətin vəziyyətdə yaşamaqda, inkişaf etməkdə olan Naxçıvana böyük şərait yaradıbdır. Amma Naxçıvanın bundan sonra da buna ehtiyacı vardır, müstəqil Azərbaycan dövlətinin içində buna ehtiyacı vardır".

Xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra da Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafını daim diqqət mərkəzində saxlamış, blokada şəraitində olan qədim diyarın dirçəlişi və inkişafı üçün mühüm tədbirlər həyata keçirmişdi.

Muxtariyyət dövründə Azərbaycan dilinin xüsusi adlar sistemində baş verən köklü dəyişikliklər onomastik vahidlərin dövrün ictimai-siyasi reallıqlarına qarşı son dərəcə həssaslığından irəli gəlir. Xüsusi adlar ekstralinqvistik amillər tərəfindən ən çox idarə olunan, bu amillərin diktəsi ilə zamanın şərtlərinə uyğunlaşan dil vahidləridir. Təsadüfi deyil ki, tarixin izləri dilin lüğət tərkibinə aid leksik vahidlərdən ən çox xüsusi adlar qrupunda özünü göstərir.

Toponimlər və onlardakı addəyişmənin elmi prinsipləri nəzəri mənbələr əsasında müəyyən edilir, muxtariyyət dövründə Naxçıvan onomastikasında baş verən bu proseslər məhz bu prizmadan qiymətləndirilir.

XX əsrdə Azərbaycanda xüsusi adlarla bağlı ilk tədqiqat əsəri isə M.Baharlının (Vəliyev) 1921-ci ildə çapdan çıxmış "Azərbaycan" kitabıdır. O, bu kitabda ilk dəfə olaraq dilimizin, tariximizin öyrənilməsində toponimlərin rolunu yüksək qiymətləndirmiş, Naxçıvan toponimləri ilə bağlı, yəni Kəngərli, Xalac, Bəydili, Dəmirçilər, Şahtaxtı, Kotam, Kilit, Sirab, Xəlillli kimi coğrafi adların mənşəyi haqqında fikir və mülahizələrini söyləmişdi.

Naxçıvan toponimlərinin öyrənilməsi sahəsində professor Q.Ə.Qeybullayevin əməyi xüsusi qiymətləndirilməlidir. Tarixçi-alim elmi fəaliyyəti boyu toponimikanın ümumi məsələləri eləcə də, Naxçıvanın toponimləri, onların yaranma tarixi, yayılma arealları, məna açımı və dil mənsubiyyətlərini elmi şəkildə böyük dəqiqliklə açıqlayıb, tədqiq etmişdi.

Akademik B.Ə.Budaqovun da bu coğrafi adlarla bağlı tədqiqat əsərləri vardır ki, onlar da elmi cəhətdən əhəmiyyətlidir. Naxçıvan coğrafiyasının, tarixinin, dilinin öyrənilməsi sahəsində toponimlərə böyük əhəmiyyət vermiş, toponimikanın ayrı-ayrı problematik məsələləri barədə məqalələr çap etdirmişdi.

AMEA-nın müxbir üzvü, AMEA-nın Naxçıvan bölməsində İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru Əbülfəz Quliyevin onomastikaya dair çox qiymətli əsərləri mövcuddur ki, bunlara "Qədim türk onomastikasının leksi-semantik sistemi", "Orxon-Yenisey abidələrində toponim və etnonimlər", "Qədim türk onomastikası", "Əski turk onomastik sözlüyü" kimi əsərləri nümunə göstərmək olar.

Azərbaycan dilçiliyində öz imzası, dəsti-xətti olan AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu Onomastika şöbəsinin müdiri olmuş, filologiya elmləri doktoru Adil Bağırov müəllimliklə başladığı şərəfli əmək yolunu həm də ciddi elmi tədqiqat işi ilə davam etdirib, dilçiliyin müxtəlif sahələrinə dair məqalələr, elmi əsərlər yazıb.

Onun onomastik vahidlərin tədqiqi ilə bağlı **"Naxçıvanın hidronimləri", "Naxçıvan toponimlərinin linqvistik xüsusiyətləri", "Naxçıvan Muxtar Respublikasının onomastik vahidlər sözlüyü", "Naxçıvanın oykonimləri", ikicildlik "Onomalogiya problemləri", "Naxçıvan urbanonimləri" kimi monoqrafiyaları, "Oronimlərin linqvistik xüsusiyyətləri" (Bakı, 2011) adlı dərs vəsaitini yüksək səviyyədə işləyib, "Türk dillərinin müqayisəli qrammatikası" (Bakı, 2008), "Türkologiyaya giriş" adlı tədris proqramlarını hazırlayıb, "Naxçıvanın hikmət xəzinəsindən"** adlı folklor toplusunu (Kamilə Bağırova və Bəxtiyar Məmmədovla birlikdə) oxucuların ixtiyarına verib.

A.Bağırovun elmi fəaliyyəti, çap etdirdiyi məqalə və monoqrafiyaları onun məhsuldar bir yararadıcılıq yolu keçdiyinə əyani sübutdur. Naxçıvan bölgəsindəki onomastik vahidləri sistemli şəkildə öyrənmək, xüsusi adların etimologiyasını açmaq, onları ciddi faktlar əsasında tədqiq edib geniş oxucu kütləsinə, elmi, ədəbi ictimaiyyətə təqdim etmək əsl vətəndaşlıq mövqeyində dayanan bir alimin üzaqgörən fəaliyyətinin bəhrəsidir.

Görkəmli alim **Tofiq Hacıyev** A.Bağırov yardıcılığı haqqında yazır: ***"...Adil Bağırovun əsərini oxuduqca gözlərinin qarşısında Naxçıvanın tarixi və tarixi coğrafiyası canlanır. Aşkarca görürsən ki, bu tarix türkündür, bu coğrafiyada bütün tarix boyu məhz türklər yaşayıblar. Dünya mədəniyyəti, dünya elmi, dünya tarixşünaslığı bunu həqiqət kimi qəbul edir ki, toponimlər torpağın tarixi yaddaşıdır... Adil Bağırovun tədqiqatındakı bu qəbildən yüzlərlə Naxçıvan toponimlərindən bir neçəsinə baxmaq da yetər ki, tarixi mənzərəni əyani şəkildə təsəvvür edək, reallığı sənədlərlə qavrayaq. Budur həmin etnotoponimlərin "vəkilləri" - nümunələri olan coğrafi adlar: Kəngərli, Xalxal, Keçili, Türkeş, Bəydilli, Böyükdüz, Xələc, Qazançı, Qarkun, Oğuzdaşı, Cığatay, Biçənək, Qarabağlar, Maxta" və s.***

F.H.Rzayev "Qədim Şərur oykonimlərinin mənşəyi", "Naxçıvan əhalisinin etnogenezi tarixindən I cild", "Naxçıvan əhalisinin etnogenezi tarixindən II cild" kimi müəllifi olduğu əsərlərində Naxçıvan toponimlərini, xüsusilə, də Naxçıvan oykonimlərini dərindən tədqiq edib. Tədqiqatçı burada etnooykonimlərin milladdan öncəki tarixinə söykənərək Naxçıvan etnooykonimlərinin qədim tarixə aid olduğunu sübut edib. O, "Naxçıvan ensiklopediyası I cild", "Naxçıvan ensiklopediyası II cild", " Naxçıvan abidələri ensiklopediyası", "Naxçıvan tarixi I cild", "Dədə Qorqud yurdu-Naxçıvan" tarixi, coğrafi və etnoqrafik atlas, "Naxçıvan Muxtar Respublikasının coğrafiyası II cild" kimi əhəmiyyətli əsərlərin də həmmüəllifidir.

Filologiya elmləri doktoru Akif İmanlı bir çox kitabın müəllifidir ki, bunlardan "Şərurun Arazboyu oykonimləri", "Şərur düzünün toponimləri", "Şərur və İğdır bölgələrinin yer adları", "Yaşayış yeri adları", "Onomastika məsələləri", "Araz vadisinin oykonimləri", "Tarixin izləri yer adları", "Naxçıvan çevrəsinin yer adları", "Qədim türk yurdunun oykonimləri" sırf onomastika elminin inkişafına həsr olunan əsərlərdəndir.

Qalibə Hacıyeva "Tariximizi yaşadan adlar Güney Azərbaycanda farslaşdırılmış qədim türk toponimləri", "Türk mənşəli erməni antroponimləri", "Tavr etnonimi əsasında yaranmış toponimlərin işlənmə arealı" kimi məqalələri ilə onomastika elminin inkişafına öz töhfəsini verib.

Fikrimizcə, A.Bağırov, Firudin Rzayev, Qalibə Hacıyeva və Akif İmanlı səriştəli, düzgün prinsiplərə malik olan yaxşı tədqiqatçılardır. Onların yazdıqlarının kökündə, məğzində bir tarixçilik prinsipi dayanır, kökə, milli dəyər və düşüncəyə bağlılıq durur. Çünki istər dil faktorlarından, istərsə də ayrı-ayrı şəxsiyyətlərin elmi, ədəbi, ictimai fəaliyyətindən yazmaq elə mənsub olduğu Vətənin, millətin tarixindən yazmaq deməkdir ki, bunlar muxtariyyət dövrünün elmə açdığı yolun elmi nəticələridir.